“Açıq hökumət debatları” layihəsi çərçivəsində keçirilən İctimai dinləmələrdə səslənmiş Təkliflər

1. “Dövlət orqanlarının fəaliyyətində informasiya şəffaflığının arıtılması ilə bağlı tövsiyyələr:

- ✓ Saytların böyük əksəriyyətində axtarış sistemində açar sözlərə görə axtarış qaneedici deyil habelə sayt strukturunda məlumatların yerləşdirildiyi başlıqlar vahid standartda təqdim edilmir. Xüsusilə də “Google” üzərindən sadə axtarışla tapılan açıq informasiyaların saytın özündə tapılmasının mümkün olmaması və ya çox qarışıq alt başlıqlarda gizlədilməsi halları çox yayqındır. Odur ki, infrastruktur yaradılarkən və istifadə edilərkən bu problemlərin aradan qaldırılması yaxşı olar.
- ✓ Dövlət qurumlarında qanunvericilikdə nəzərdə tutulan informasiya infrastrukturunun formalaşdırılması, tam başa çatdırılması və təkmilləşdirilməsi vacibdir. Habelə, qanunvericilikdə nəzərdə tutulan qaydada keyfiyyətli, dolğun, dəqiq informasiyaların saytda yerləşdirilməsi idarəetmədə şəffaflığı artırar, neqativ halları aradan qaldırar

- ✓ Dövlət qurumundan informasiya sorğularının elektron formatda alınması üçün bütün saytlarda ayrıca xidmət bölməsi olmalı, online müraciət formalarında ərizə və şikayətlər üçün olan bölmələrdə hökmən informasiya sorğusu üçün xüsusi bölmə olmalı, həmin bölmələrdə ictimai informasiyalar üçün şəxsiyyəti identifikasiya edən bilgilər (Şəxsiyyət vəsiqəsi və FİN nömrəsi) tələb olunmamalı, Bu məlumatlar yalnız fərdi məlumatlar bölməsi aktiv olduqda məcburi tələb olmalıdır. Qanunla sorğuçunu identifikasiya edən bilgilərdən hər hansı birinin varlığında digər bilgilər üçün məcburi doldurma şərti tələb olunmamalıdır
- ✓ Dövlət qurumu ilə bağlı bir çox sənəd ziyarətçiyə təqdim olunarkən yalnız məcburi yükləmə sistemi tətbiq edilir. Əks əlaqə üçün informasiya sorğusu seçiminin olmaması, habelə, elektron müraciət zamanı əlavə şəxsi məlumatların tələb edilməsi ziyarətçi üçün əlavə çətinliklər yaradır.

- ✓ Açıq və keyfiyyətli informasiyaların yayılma formasında ziyarətçilər üçün əlavə texniki çətinliklər var. Skayn olunmuş və ya PDF formatda olan məlumatlardan istifadə etmək olmur. İnformasiyaların “maşın oxuyan” formatında (məs.word) olması tövsiyə olunur.

- ✓ Dövlət qurumları cəmiyyət üçün zəruri informasiyaları operativ açıqlamamaqda davam edir. Bu da cəmiyyətdə dezinformasiyanı və informasiya ilə manufliyasiyanı bəsləyir. Bu istiqamətdə zəruri siyasət dəyişməli operativ məlumatlar dərhal cəmiyyətə təqdim edilməlidir.

- ✓ Dövlət qurumlarının informasiya açıqlığı üzərində dövlət nəzarəti qənaətbəxş deyil. İnformasiya əldə etmək hüququnun təminatı baxımından üst nəzarət mexanizması işlək deyil.

2. Dövlət orqanlarının xidmətlərinin daha səmərli təşkili

- ✓ Xidmət mərkəzinin ünvanı barədə məlumatlandırmanın daha da təkmilləşdirilməsi:
- ✓ Xidmət mərkəzinin elektron xəritədə yeri, həmin yerə gedən nəqliyyat vasitələrinin adlarının və nömrələrinin açıqlanması.
- ✓ Xidmətlər barədə ictimai məlumatlandırmanın təkmilləşdirilməsi:
- ✓ Xidmət mərkəzi və təqdim olunan xidmətlər barədə sosial şəbəkələrdə maarifləndirmənin aparılması;
- ✓ Onlayn konsultasiya (bələdçi) xidmətinin təşkil edilməsi.
- ✓ Şikayət mexanizmlərinin, sorğuların reqlamentlərinin hazırlanması və açıqlanması;

- ✓ Əlilliyi olan şəxslər yaxud körpə uşaqlı valideynlərin mərkəzə daxil olması üçün pandus və ya lift və ya digər əlverişli şəraitin yaradılması;
- ✓ Hər bir xidmətin göstərilməsi üçün orta müddətin müəyyən edilməməsi;
- ✓ Xidmət yerində nağdsız ödəmə imkanının təmin edilməsi;
- ✓ Kserokopiya və printer xidmətinin təmin edilməsi;
- ✓ Növbəli və fasiləsiz iş rejiminin tətbiqi;
- ✓ Xidmətin gedişatı prosesində müraciətin statusu ilə bağlı vətəndaşların sms, e-mail vasitəsilə məlumatlandırılması.
- ✓ Vətəndaş məmnuniyyətlə bağlı sorğuların təşkili:
- ✓ Bunun üçün sorğuya məsul olan şəxsin müəyyən edilməsi və sorğu reqlamentinin hazırlanması;
- ✓ Xidmət yerində, xidmət yerindən kənarda və ya onlayn qaydada sorğuların keçirilməsi.
- ✓ Məmnuniyyət sorğusunun nəticələrinin açıqlanması.

3. Vətəndaş müraciətlərinə baxinlması işinin təkmilləşdirilməsi sahəsində

- ✓ İXM-nin "Vətəndaşların müraciətləri haqqında" qanunun tələblərinin pozulmasına görə məsuliyyət müəyyən edilən 594-1.-ci maddəsində hüquqi şəxslər üçün cəmi 200 manat, vəzifəli şəxslər üçün 100 manat cərimə nəzərdə tutulub. Bu maddə üzrə məsuliyyətə cəlb etmə mexanizmi də çətindir. Belə ki, vətəndaş müvafiq vəzifəli şəxsin onun müraciət hüququnu pozması barədə prokurorluğa müraciət etməli, prokurorluq İnzibati Xəta Protokolu tərtib edib işi məhkəməyə gndərməlidir. Bundan sonra məhkəmə işə baxıb həmin hüquqi şəxsi və vəzifəli şəxsi 200 manat və 100 manat cərimə edə bilər.
- ✓ Həmin maddədə müraciət edən şəxsə müraciətin qəbul edilməsinə dair qəbz verməmə, müraciətə baxmama və ya baxmaqdan yayınma, müraciət edən şəxsin müraciəti üzrə onu araşdırma prosesinə cəlb etməmə, qəbul vaxtları, qəbula yazılma, müraciətlər üzrə məlumatları, o cümlədən dövri statistik məlumatların internet səhifəsində yerləşdirilməməsi, müraciətin təmin olunmasından subyektiv mülahizələrlə imtina edilməsi, müraciətlərin araşdırılması və vətəndaşların qəbulları üzrə ictimai nəzarətə şərait yaratmama kimi əməllər də daxil edilməlidir;
- ✓ Vətəndaşların müraciətləri haqqında" qanunun (Qanun) 11.1.-ci maddəsində müraciətə baxan subyektlərin vətəndaşları ayda azı bir dəfədən az olmayaraq qəbul etmələri tələbi qoyulur. Bu müddət artırılmalı və ayda azı iki dəfədən az olmayaraq müəyyən edilməlidir;
- ✓ Qanunun 11.8.-ci maddəsində müraciətə baxan subyektlərin rəhbərlərinin və digər vəzifəli şəxslərinin videoqəbullar və onlayn konfranslar keçirmələri onların hüquqları kimi müəyyən olunub. Hesab edirik ki, videoqəbulların və onlayn konfransların keçirilməsi həmin subyektlərin rəhbərlərinin və digər vəzifəli şəxslərinin vəzifələri kimi müəyən edilməlidir;
- ✓ Qanuna müraciətlərin baxılmasına ictimai nəzarət və şəffaflığın təmin edilməsinə dair ayrıca müddəalar əlavə edilməlidir;
- ✓ Mərkəzi İcra hakimiyyəti orqanlarının rəhbər şəxsləri elan edilmiş qrafikə uyğun olaraq vətəndaşların qəbullarında özləri birbaşa iştirak etməlidirlər;İnsanlar canlı yayımlar və videoqəbullar vasitəsi ilə birbaşa dinlənilməli və qəbul edilməlidirlər;
- ✓ Çağrı Mərkəzləri/Qaynar Xətlərdə zənglər üzrə növbələr və gözləmələr yarıbayarı azaldılmalı və bunun üçün zənglərə cavab verən şəxslərin sayı artırılmalıdır.
- ✓ Azərbaycan Respublikası Baş prokurorunun dövlət orqanları və ya onların vəzifəli şəxslərinin qanunazidd hərəkəti (hərəkətsizliyi) barədə prokurorluq orqanlarına daxil olmuş müraciətlərə baxılmasının nəticələri barədə Azərbaycan Respublikasının Prezidentinə hesabatları Azərbaycan Respublikası Baş Prokurorluğun internet səhifəsində yerləşdirilməlidir.

4. Dövlətə məxsus şirkətlərdə hesabatlılıq və şəffaflığın təmin edilməsi sahəsində

- ✓ Maliyyə hesabatlarını vaxtında dərc etməyən (açıqlamayan) şirkətlərə(onların rəhbərlərinə) qarşı ciddi məsuliyyət mexanizmləri işlənilməlidir;
- ✓ İri dövlət müəssisə və şirkətlərinin səhmləşdirilməsi. Dövlətə yalnız həlledici səhm paketinə sahibliyin saxlanması (51-75%%?);
- ✓ Hesabatlılığa dair Standartın tətbiqi;
- ✓ Veb-səhifədə maliyyə hesabatının yerləşdirilməsi standartının hazırlanması.

5. Korrupsiyaya qarşı mübarizədə İKT-dən istifadə sahəsində

- ✓ Məlumat bazalarının inteqrasiyası prosesini yekunlaşdırmağa və bu prosesin normativ tənzimlənməsinə imkan yaradaq normativ-hüquqi aktın qəbul olunması
- ✓ Elektron xidmətlərdən istifadə olunması ilə bai əhali arasında rəy sorğularının keçirilməsi
- ✓ Proaktiv elektron xidmətlərin xidmətlərin inkişafı ilə bağlı konsepsiya hazırlanamsı və həyata keçirilməsi
- ✓ Əhalinin rəqəmsal bacarıqlarının artırılması sahəsində genişmiqyası maarifləndirmə tədbilərinin həyata keçirilməsi
- ✓ Elektron imza alınması prosedurlarının sadələşdirilməsi və bu sahədə seçim imkanlarının yaradılması
- ✓ Korrupsiya riski yüksək olan sahələrəd elektronlaşma ilə bağlı konsepsiya hazırlanması və həyata keçirilməsi